# AZƏRBAYCAN RESPUBLIKASI AUDİTORLAR PALATASI SƏDRİNİN SƏRƏNCAMI

**Bakı şəhəri** **№ 1/41** **18 iyun 2019-cu il**

**Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin 2019-cu il 7 fevral tarixli 1/9 nömrəli "Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan auditor yoxlamalarının keyfiyyətinin yaxşılaşdırılması haqqında" sərəncamında dəyişiklik edilməsi barədə**

"Audit Grup" MMC-nin direktoru Natiq Həmid oğlu Məmmədov tərəfindən Azərbaycan Respublikası Auditorlar Palatasına ünvanlanmış həmin cəmiyyətin "Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalara cəlb ediləcək auditorların siyahısına daxil edilməsi barədə" 5 iyun 2019-cu il tarixli müraciətini, həmin siyahıda Gəncə zonasından sərbəst auditor və auditor təşkilatının olmamasını və Şəffaflığın təminatı və korrupsiyaya qarşı mübarizə idarəsinin Dövlət proqramlarının və tapşırıqlarının icrası şöbəsinin müdiri E.Rzayevin 18 iyun 2019-cu il tarixli təklifini nəzərə alaraq **qərara alıram:**

1. "Audit Grup" MMC (direktor-auditor N.Məmmədov) 2019-cu il 7 fevral tarixli 1/9 nömrəli "Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan auditor yoxlamalarının keyfiyyətinin yaxşılaşdırılması haqqında" sərəncamda göstərilən siyahıya daxil edilsin.
2. "Audit Grup" MMC-nin direktor-auditoru Natiq Həmid oğlu Məmmədova tapşırılsın ki, səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalara cəlb edildiyi təqdirdə Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2017-ci il 25 avqust tarixli 289/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalara dair Qayda"nın tələblərinə ciddi riayət etsin.
3. Şəffaflığın təminatı və korrupsiyaya qarşı mübarizə idarəsinə (M.Abbasov, E.Rzayev) tapşırılsın ki, səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalara cəlb ediləcək auditorların yenilənmiş siyahısının aidiyyatı qurumlara göndərilməsi təmin edilsin.
4. Bu sərəncamın mətninin Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Palatanın sədri** **Vahid Novruzov**